# "Əsrin müqaviləsi": iqtisadi inkişafın əsası

## Ümummilli lider Heydər Əliyevin səyi və qətiyyətli addımlarının nəticəsi olan "Əsrin müqaviləsi" ölkəmizin iqtisadiyyatını yüksəltməklə yanaşı, dünya birliyindəki yerini daha da möhkəmləndirdi



Ölkəmiz sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 21-ci ildönümünü qeyd etməyə hazırlaşır. Məlum olduğu kimi, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə üzləşmişdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Ölkəmizin müstəqilliyinin möhkəmlənməsi üçün qətiyyətli addımlar atdı. Azərbaycanı çətin vəziyyətlərdən xilas edən dahi rəhbər Heydər Əliyev digər sahələrdə olduğu kimi, ölkənin iqtisadi yüksəlişi üçün də mühüm tədbirlər gördü. Həmin dövrdə respublikamızın qarşılaşdığı iqtisadi çətinliklərin həlli yollarından biri də məhz neft və qaz hasilatının artırılması idi.

Ulu Öndər o dövrdə ölkəmizin gələcək inkişafını Qərb şirkətləri ilə milli maraqlara söykənən əməkdaşlığın qurulmasında görürdü və bir çox çətinliklərə baxmayaraq, qısa müddətdə bu möhtəşəm konsepsiyanı gerçəkləşdirməyə nail oldu. Xarici neft şirkətlərini Azərbaycanın neft sənayesinə cəlb etmək üçün müxtəlif səviyyələrdə danışıqlar aparıldı, xarici investorlarda Azərbaycanla bağlı olan inamsızlıq sindromu aradan qaldırıldı və neft sənayesinə sərmayə qoyuluşu üçün dərin inam yarandı. Dahi liderin fəaliyyətinin mərkəzində özünün yığcam şəkildə ifadə etdiyi belə bir fikir dururdu: "Bizim məqsədimiz təkcə neft hasil etmək deyil, onu nəql etmək, buradan vəsait əldə etməkdən ibarət deyildir. Bizim əsas məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir".

Bu danışıqların məntiqi yekunu olaraq, 1994-cü il sentyabrın 20-də "Gülüstan" sarayında "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında saziş imzalandı. Təxminən 400 səhifə həcmində və 4 dildə hazırlanmış müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alıb. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məhşur neft şirkəti (Amoko,bp, MakDermott, Yunokal. ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edib. Bununla da müstəqil dövlətimizin neft strategiyası uğurla həyata keçirilməyə başlandı.

"Əsrin müqaviləsi"nin ilk günlərindən Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə SOCAR ilə birgə işlərə başlandı. Bu, dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir.

Bu müqavilə Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu. "Əsrin müqaviləsi"nin bağlanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başlandı. Məhz bu müqavilənin imzalanmasından sonra dünya dövlətlərinin Azərbaycanın iqtisadiyyatına olan marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə böyük təkan verdi. Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadiyyatına qoşulmasına və beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirməsinə şərait yaratdı. "Əsrin müqaviləsi" təkcə neft sektorunun deyil, eyni zamanda qeyri-neft sektorunun da inkişafına təkan verdi. Azərbaycanın dünya iqtisadi məkanına inteqrasiyasını gücləndirdi. Qısa zaman ərzində dövlət büdcəsinin dəfələrlə artması, qeyri-neft sektorunun sürətli inkişafı göstərdi ki, "Əsrin müqaviləsi" ölkəmizin inkişafında böyük rol oynamışdır. Bu gün iqtisadiyyatımızın sürətli inkişafının əsas səbəblərindən biri məhz sözügedən müqavilədir.

"Əsrin müqaviləsi" ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsində Azərbaycan regionun ən lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranıb. Bu gün ölkəmizdə əldə olunan iqtisadi uğurların əsasını məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə ümummilli lider Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" təşkil edir. *Əminliklə deyə bilərik ki, bu cür güclü təməl üzərində qurulan ölkə iqtisadiyyatı bundan sonra daha sürətlə inkişaf edəcək, xalqımızın rifahı ildən-ilə yaxşılaşacaq, Azərbaycan daha da qüdrətli bir dövlətə çevriləcək.*

**Mənsumə Babayeva**